# Sülhməramlıların avtomobilləri aksiya ərazisindən sərbəst keçiblər

Aksiyanın 30-cu günündə Rusiya sülhməramlılarına məxsus avtomobillər hər zamankı kimi Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil olunan aksiya ərazisindən sərbəst keçirlər.

AZƏRTAC-ın aksiya yerinə ezam olunmuş müxbiri xəbər verir ki, bu dəqiqələrdə sülhməramlılara aid daha bir avtomobilin Laçından Xankəndi istiqamətinə doğru hərəkətinə şərait yaradılıb.



Bu, bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin olunur. Heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir. Ermənistan mətbuatında yayılan, etirazçıların guya Laçın-Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabr ayının 12-dən başlayan dinc aksiya 30 gündür davam edir.

Azərbaycan.- 2023.- 11 yanvar.- S.9.